# KONTRTENOR: TANRININ BƏXŞ ETDİYİ QEYRİ-ADİ SƏS TEMBRİ

İlham Nəzərov
**E-mail:** *ilhamnazarov@yahoo.com*

Kontrtenor və ya kontratenor (*countertenor, contratenore*) latıncadan hərfi tərcümədə "tenora qarşı" adlanır. Kişi səsləri arasında ən yüksəyidir, diapazonu kiçik oktavanın "do" notundan üçüncü oktavanın "do" notuna qədərdir. Üçüncü oktavanın "do" notunu oxuyan kontrtenorlar son zamanlara qədər azlıq təşkil edirdilərsə, hazırda bu notun mükəmməl ifaçıları artmaqdadır.

Polifonik musiqidə XIV–XVI əsrin ilk yarısında kontrtenor partiyaları tenor və diskant partiyalarına köməkçi partiya kimi əlavə olunurdu. Kontrtenor partiyaları əvvəllər tenorlar üçün nəzərdə tutulan tessiturada yazılırdısa, XVI əsrin ortalarında yayılmış dördsəsli ifa növü ilə əlaqədar iki ayrı partiyaya bölündü. Partiyalardan biri tenordan aşağı tessiturada "kontratenor bassus", ikincisi isə tenordan yüksək tessiturada "kontratenor altus" adlandı. Daha sonralar "kontrtenor" termini özünün ilkin mənasını itirdi, "kontratenor bassus" sadəcə "bas", "kontratenor altus" isə İtaliyada "alto", Fransada "haute countre", İngiltərədə isə "countertenor" kimi adlandırılmağa başlandı.

Qadın səsinə bənzəyən, yüksək tessiturada ifa edən klassik kişi müğənniləri hər zaman dinləyicilərin təəccübünə, fərqli reaksiyasına məruz qalmışlar *(1)*.

2012-ci ilin iyul ayında İtaliyanın "Della Valle D'itria" adlı Beynəlxalq Barokko Musiqi Festivalında opera tamaşasının hazırlıq prosesi zamanı şəxsən tanış olduğum, dünyaca məşhur argentinalı kontrtenor Franko Fagoli *(Franco Fagioli)* ilə söhbətimiz əsasında Franko başına gələn bir hadisəni mənimlə bölüşdü: "İtaliyada keçirdiyim ustad dərslərindən birində 22 yaşlı gənc kontrtenorun ifasını dinlədim, onun möhtəşəm səs və güclü texnikaya malik olduğunu söyləyərək gəncin ifa zamanı tamaşaçılar qarşısında çəkdiyi sıxıntının səbəbini soruşdum. Cavab belə oldu: insanlar mənə çox qəribə baxışlarla baxırdılar, sanki düzgün olmayan bir hərəkət edirdim. Gülümsəyərək gənci qucaqladım və üzümü ustad dərsinin bütün iştirakçılarına yönəldərək dedim: "İnsanlar bu səs tembri ilə oxuyan müğənnilərin anatomik problemləri olduğunu düşünür, hətta bəzən məsxərəyə də qoyurlar, xoşbəxtlikdən belə düşünənlər azlıq təşkil edir. Kontrtenorlar Tanrının göndərdiyi mələklərdir! Tanrı biz bəndələrinə qarşı olan sevgisini bir növ kontrtenorların səsi ilə duyurur".

Kontrtenorları kastratlarla da səhv salırdılar. Kastratlardan danışarkən məşhur Fransa musiqişünası, professor Patrik Barbye "Kastratların tarixi" adlı kitabında yazır: "IX əsrdən XX əsrin əvvəllərinə kimi fəaliyyət göstərən bu müğənnilərdən çox az hissəsi xüsusi əməliyyatdan sonra səslərində olan parlaqlığı qoruyub saxlaya bilmişdirlər". *(2, səh. 27–28)*. Keçid (11–12 yaşdan) dövründən öncə keçirilən cərrahi əməliyyatdan sonra çox az ifaçının səsi əvvəlki gözəlliyini, səslənməsini saxlaya bilirdi. Hormonal pozğunluq yaşayan bu insanlar çox zaman çanaqlarda böyümə, kosalıq və s. problemlərlə qarşılaşırdılar.

Andreas Şoll



Fransalı musiqişünas, bəstəkar, filosof Jan-Jak Russo yazırdı: "İtalyan ataları arasında varvarlar var. Onlar öz yaxşı güzəranı, şan-şöhrəti üçün oğullarını bu cür ağır əməliyyata (axtalaşdırmaq) məcbur edirlər" *(3, səh. 146–155)*.

Kastratlardan fərqli olaraq kontrtenor səs tembri ilə ifa edən müğənnilər heç bir cərrahiyyə əməliyyatı keçirmədikləri üçün belə problemlərlə qarşılaşmırdılar. Kontrtenor səs tembri ilə ifa edən ifaçılar "ənənəvi" ifaçılardan (bas, bariton və tenor) anatomik olaraq fərqlənmirdi.

Bir çox opera və kamera müğənniləri keçid dövründən başlayaraq yüksək registrdə (kontrtenor) ifanı inkişaf etdirmək üçün xüsusi məşğələlərlə səs yüksəkliyinin düzgün inkişafına, səslənmənin keyfiyyətinin artmasına nail olurlar. Yüksək registrdə səs tellərinin sadəcə bir hissəsi işlədiyi üçün ifaçılar öz ifalarında tezləşdirilmiş vibrasiyalardan istifadə edə bilirdilər. Kontrtenorlar çox zaman tenor, bas və ya bariton səs tembrində də oxuya bilirlər.

Məşhur alman kontrtenoru Andreas Şoll 2009–2010-cu ildə "Barbican Centre's YouTube" kanalında yayımlanan "Great Performers" proqramında jurnalistin "Nə üçün kontrtenorlar dövrümüzdə unikal opera və kamera müğənniləri kimi tanınırlar?" sualına cavab olaraq demişdir: "Ondan başlaya bilərik ki, hər vokal ifaçısı risk edib bu registrdə oxumaz, nadir ifaçıların yüksək registrdə səs keyfiyyəti təbiətən mükəmməl olur. Kontrtenor səs tembri ilə oxuyan müğənni xüsusi repertuara malik olmalı və xüsusi manerada ifa etməyi bacarmalıdır. Bu cür səsi gücün təsiri ilə yönləndirmək yanlışdır. Bəzən tenorlara, baritonlara diqqət yetirsək, onlar ifa etdiyi repertuarda çox zaman səsin obertonundan çox, gücünə önəm verirlər, kontrtenor üçün bu, səhvdir!" *(4)*.

Falsetlə ifa ənənəsi öz kökünü keçmişdən alır. Tarixdən bizə məlumdur ki, XVI əsrdə İtaliyada çox konsert ifaçılarının parladığı dövrdə məşhur Sikstin kapellasında ispan falset ifaçıları da alt və soprano partiyalarını böyük məharətlə ifa edirdilər. Almaniyada və İngiltərədə falset ifaçıları XVII əsrdə, Fransada isə "ot kontr " (*houte –contre*) yüksək notları falsetlə ifa edən tenorlar məşhur idi.

XVIII əsrdə ingilis kontrtenorları kastrat ifaçıları ilə bərabər, G.F.Hendelin oratoriyalarını oxuyar, XIX və XX əsrlərdə isə falset ifaçılarını ingilis kafedral xorlarında dinləmək olardı. Nəhayət, XX əsrin ortalarında ingilis xor və falset ifaçısı Alfred Deller (1912–1979) falsetlə solo ifa etməyə başladı və bununla da falsetlə solo ifanın təməlini qoymuş oldu. Xorda alt partiyalarını ifa edən ifaçılar İngiltərədə ənənəvi olaraq *(male alto)* kişi alt ifaçısı adlandırılırdısa, Alfred Deller bəstəkar Maykl Tipetin məsləhəti ilə öz səs tembri üçün "kontrtenor" *(countertenor)* terminindən istifadə etdi.

Alfred Deller "BBC"nin üçüncü proqramında Henri Pörselin mahnılarını oxumaqla dünyaca məşhurluq tapmış oldu. Daha sonra İohan Sebastyan Bax, Georq Fridrix Hendel, Con Daulend və d.



Alfred Deller

dünyaca məşhur bəstəkarların əsərlərini oxuyaraq "kontrtenor" səs tembri ilə ifanı insanlara aşıladı. 1960-cı ildə ingilis bəstəkarı Bencamin Britten xüsusi olaraq Alfred Deller üçün "Yay gecəsində yuxu" *(A Midsummer Night's Dream)* adlı operasında "Oberon" partiyasını yazmışdır *(5)*. XX əsrin kontrtenor ifaçılıq məktəbinin banisi Alfred Deller müsahibələrindən birində deyir: "Kontrtenor səs tembri ilə ifa etmək istəyən ifaçıların çox hissəsinin bu cür ifa üçün istedadı yoxdur, kimdə ki istedad var, onlar da qadınsı görünməmək üçün bu registrdə ifa etmək istəmir".

Respublikamızın ilk və hələ ki yeganə kontrtenor səs tembri ilə opera və kamera musiqilərini ifan edən vokal ifaçısı kimi vurğulamaq istərdim ki, indiki dövrdə kontrtenorlara "ənənəvi" kişi ifaçılarından fərqli olaraq az ehtiyac duyulur. Bir çox beynəlxalq vokal yarışlarında kontrtenor səsi ilə ifa edən ifaçılara iştirak hüququ verilmir. Diqqətinizə çatdırmaq istərdim ki, Avropa musiqi arenasında baş verən maddi böhran (kontrtenor və başqa opera ifaçıların, musiqiçilərin məruz qaldığı) şükürlər olsun ki, respublikamızdan yan keçib, əksinə, son illər ərzində klassik musiqiyə, xüsusən "Barokko" dövrünün musiqisinə və kontrtenor səs tembrinə böyük maraq yaranıb. Vurğulamaq istərdim ki, respublikamızda öz sənəti ilə seçilən incəsənət xadimlərinə verilən dəyərin nəticəsi olaraq 2017-ci il martın 9-da Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən "Əməkdar artist" fəxri adı ilə təltif olundum.



Sənətimə verilən dəyər timsalında gələcəyin azərbaycanlı kontrtenorlarının inkişafında böyük rol oynayacaqdır.

28 sentyabr 2014-cü ildə Azərbaycan Respublikasının opera tarixində ilk dəfə olaraq kontrtenor (İlham Nəzərov) opera səhnəsində çıxış etmiş və ilk dəfə V.A.Mosartın "Fiqaronun toyu" operasında Kerubino rolunu ifa etmişdir (bu rolu, adətən, mezzo-soprano ifa edir.) *(6)*.

Il Mugham, l'antico sistema modale azero su cui si muoverà il canto del controtenore Ilham Nazarov; (Azərbaycan xalqına məxsus qədim kökü olan "Muğam" İlham Nəzərovun ifasında səslənəcək!) *(7)*.

2015-ci ilin 4 iyul tarixində İtaliyanın məşhur "Ravenna" musiqi festivalında azərbaycanlı kontrtenor (İlham Nəzərov), dünya şöhrətli dirijor, maestro Rikkardo Muti ilə festivalın tarixində ilk dəfə olaraq Azərbaycan xalq mahnısı "Sarı gəlin"i (mahnının ifasından öncə violonçelin müşayiəti ilə muğam boğazlarından istifadə etmişdim) orkestrin müşayiəti ilə ifa etdim *(8)*.

Konsert İtaliyanın "RAİ-5" telekanalı vasitəsilə yayımlandı.

Festivalın tamaşaçıları, hətta musiqiçiləri də Azərbaycan musiqisinə olan heyranlıqlarını gizlətməmiş, konsertsonrası ifa olunan Azərbaycan xalqına məxsus milli boğazların necə səsləndirildiyi haqda suallar ünvanlamışlar. Şəxsən öz təcrübəmə əsaslanaraq vurğulamaq istərdim ki, dünyada şöhrət qazanmış muğamımız ənənəvi ifaçıları sayılan xanəndələrdən savayı, yaxın gələcəkdə kontrtenorlar tərəfindən klassik musiqi arenasında da öndə yerini alacaqdır.

2016-cı ilin mart ayında isə Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrında P.İ.Çaykovskinin "Qaratoxmaq qadın" operasında qadın obrazını (Prilepa) kontrtenor (İlham Nəzərov) canlandırmaqla opera teatrımız dünyada bir "ilkə imza atmış oldu" (adətən, bu rolu yüksək sopranolar ifa edirlər) *(9)*.

Kontrtenor ifaçılarının səs telləri başqa səs tembrinə malik müğənnilərdən daha kövrək olduğu üçün uzun müddət bu səs tembri ilə ifa etmək çətindir. Səs telləri daha tez yorulur. Müasir kontrtenorların unikal və az rastlanan olmasında onların texniki gücü və musiqi təhsili zənginliyinin böyük rolu var. ❖

**Ədəbiyyat:**


1. *http://countertenors.ru/countertenor.htm*
2. Барбье Патрик. История кастратов / Пер. с фр. Е. Рабинович. СПб.: Изд-во Ивана Лимбаха, 2006, с. 9–37.
3. Барбье Патрик. История кастратов / Пер. с фр. Е. Рабинович. СПб.: Изд-во Ивана Лимбаха, 2006, с. 146–155.
4. *https://www.youtube.com/watch?v=tGtTLhuqy4Y (Great Performers 2009–2010: Andreas Scholl talks about countertenors)*
5. *http://www.bach-cantatas.com/Bio/Deller-Alfred.htmSource: Liner notes to Vanguard Classics CD OVC-8106 (The Art of Alfred Deller - Bach & Händel, 1997); The Vocal Resource Website; Baker's Biographical Dictionary of 20th Century Classical Musicians (1997); All Music Guide Website; Martin Deller (grandson of Alfred Deller, March 2008)*
6. *http://ann.az/ru/premera-v-baku-opera-quotsvadba-figaroquot-vamocarta-foto/*
7. *http://www.fondazionepetruzzelli.it/wp/wp-content/uploads/Ravenna-Festival-1.pdf*
8. *http://www.turismo.ra.it/ger/Events/Veranstaltungen-und-Initiativen/Musik/Ravenna-Festival---Le-vie-dell%E2%80%99amicizia_-l%E2%80%99Albero-della-vita-(Ravenna-Otranto)*
9. *https://www.trend.az/life/culture/2499222.html*



**Резюме**

Статья посвящена развитию тембра контр тенор, с первой половины XIV – XVI века. Главная цель автора – это прояснить совершенство и сложность исполнения этого названного по-разному тембра, который развивается по сей день их дней. В центре внимания – вопросы, связанные с выбором исполнения, которые выбирают талантливые исполнители, имеющие этот тембр голоса. Проявление и развитие тембра контр тенор в нашей республике – это одна из задач автора.


**Ключевые слова:** контр тенор, кастрат, тембр, сценический образ, оперный певец, мужской голос.


**Summary**

The article is devoted to the development of the timbre of the countertenor, from the first half of the XIV – XVI century. The main goal of the author is to clarify the perfection and complexity of the performance of this differently named timbre, which develops up to our day. In the center of attention are the questions connected with the choice of performance chosen by talented performers who have this timbre of voice. The manifestation and development of timbre countertenor in our republic is one of the tasks of the author.


**Key words:** countertenor, castrato, timbre, character, opera singer, male voice.